*https://doi.org/10.30546/114578.2025.9.1019*

# HƏSƏN BƏY ZƏRDABİNİN MAARİFÇİ GÖRÜŞLƏRİNDƏ QADIN TƏHSİLİ və TƏRBİYƏSİ

**Günay Alıyeva**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCID.org/0000-0001-5780-039X*
*aliyevagunay79@yahoo.com*

*Azərbaycan mədəni-içtimai fikir tarixinin görkəmli şəxsiyyətlərindən biri, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin zəngin irsi bugünkü və gələcək nəsillərin azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda formalaşmaları baxımından müstəsna əhəmiyyətə malikdir.*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Xülasə**

Azərbaycan xalqının ədəbi fikir və mədəniyyət tarixinə maarifpərvər ədib kimi daxil olan Həsən bəy Zərdabinin ən böyük xidməti milli mətbuatımızın əsasını qoyması, xalqın arzu və istəklərinin tribunu olan "Əkinçi" qəzetini yaratması olub. Xalqını cəhalət və nadanlıqdan xilas etməyi həyatının mənası bilən maarifpərvər ədibi yaradıcılığı boyu ana dili, qızların təhsili, anadilli məktəblərin açılması və təhsilin ana dilində olması, xalqın maddi rifahının yaxşılaşdırılması düşündürmüş, qələmini bu yolda süngüyə çevirmişdir.

"Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur" deyən Zərdabinin görüşlərində qadınların təhsili və tərbiyəsi ayrıca səhifədir. Uşağa tərbiyənin, ədəbin anadan gəldiyini, cəmiyyətin dirçəlişində mənəvi yüksəlişin, tərbiyənin qadından gəldiyini o bir ziyalı kimi yüksək qiymətləndirirdi.

**Açar sözlər**: maarifçilik, Zərdabi, qadın təhsili, cəmiyyət, tərbiyə, "Əkinçi".

## WOMEN EDUCATION AND UPBRINGING IN HASAN BAY ZARDABI'S ENLIGHTENMENT VIEWS

**Gunay Alıyeva**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Hasan Bay Zardabi, who holds a prominent place in the literary and cultural history of the Azerbaijani people as an advocate of enlightenment, rendered his greatest service by laying the foundation of the national press and founding the newspaper "*Akinchi"*, which became a platform for the people's desires and aspirations. Throughout his literary activity, this enlightened intellectual, who saw saving his nation from ignorance and backwardness as the purpose of his life, was deeply concerned with issues such as education in the mother tongue, the schooling of girls, the establishment of native-language schools, and the improvement of the people's material well-being − turning his pen into a weapon in this cause.

In Zardabi's views, the education and upbringing of women constitute a distinct and significant area. He highly valued the idea that a child's upbringing and manners come from the mother and believed that women's moral influence plays a key role in the revival of society.

**Key words:** enlightenment, Zardabi, women's education, society, upbringing, "Akinchi".

## ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ ЖЕНЩИН В ПРОСВЕТИТЕЛЬНЫХ ВСТРЕЧАХ ГАСАН БЕКА ЗАРДАБИ

**Гюнай Алыева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Гасан бек Зардаби, вошедший в историю литературной мысли и культуры азербайджанского народа как просвещённый писатель, внёс наибольший вклад в закладывание основ нашей национальной печати и создание газеты «Экинчи», которая была трибуной народных чаяний и желаний. Просвещенный писатель, осознававший, что спасение народа от невежества – смысл его жизни, на протяжении всего своего творчества думал о родном языке, об образовании девушек, об открытии национальных школ и обучении на родном языке, об улучшении материального благосостояния народа, превратив своё перо в штык на этом пути.

«Нация, лишённая образования и науки, лишена света», – говорил Зардаби, и в его воззрениях женское образование и воспитание – отдельная

страница. Будучи интеллектуалом, он высоко ценил тот факт, что воспитание и манеры передаются от матери к ребёнку, а духовный рост и воспитание в возрождении общества – от женщин.

**Ключевые слова:** просвещение, Зардаби, женское образование, общество, воспитание, «Экинчи».

## Giriş/Introduction

Tarixin müxtəlif dövrlərində qadınların təhsil almasına münasibət cəmiyyətin siyasi, mədəni və dini baxışlarından asılı olaraq fərqli olmuşdur. Əsrlər boyu patriarxal düşüncə sistemi qadını ailə daxilində məhdudlaşdırmış, onun əsas vəzifəsini yalnız ana, həyat yoldaşı və evdar qadın olmaqda görmüşdür. Bu səbəbdən qadınların təhsildən kənarda qalması uzun müddət cəmiyyət tərəfindən normal hal kimi qəbul olunmuşdur.

Xüsusilə Şərqdə, o cümlədən Azərbaycanda qadının savadlanması, ictimai həyata qoşulması, fikir irəli sürməsi ciddi maneələrlə qarşılaşmışdır. Müqəddəs "Qurani-Kərim"də qadına yüksək qiymət verilir, "qadınlar kişilərin övlad əkdiyi tarla hesab edilir və onlara vaxtlı-vaxtında öz tarlalarına gəlməyi, qabaqcadan yaxşı əməllər hazırlamağı tövsiyə edilir. Qadınların ən yaxşısı nəcib, mömin, uşaqlarına mehriban, ərinin mal və sərvətinə ürək yandırandır. ...Qadın hüququ müqəddəsdir. Bu hüququ onların özlərinə qaytarmaq lazımdır" [Talıbov, 1999:37]. Lakin ənənəvi dini və mədəni təsəvvürlər qadının "çərçivədə" qalmasını istəyir, savadlı qadını "qayda pozan", "yolunu azan" kimi görürdü. Bu kimi yanlış təsəvvürlər bəşəriyyətin yaradıcısı olan qadının cəmiyyətin inkişafında, yeni nəslin tərbiyəsində və maariflənməsində roluna ciddi şəkildə zərər verirdi.

Unudulmamalıdır ki, təhsilsiz qadın, təhsilsiz ailə deməkdir. Ailənin təməlini təşkil edən ana savadlı olduqda, o yalnız bir nəsil deyil, bütöv bir cəmiyyətin gələcəyini formalaşdırmaq gücünə malik olur. Bu səbəbdən qadınların təhsil alması yalnız onların şəxsi hüquqları deyil, həm də ümummilli inkişafın əsas şərtlərindən biridir.

**Qadın təhsili – cəmiyyətin tərəqqisinin əsası kimi.** Ənənəvi cəmiyyət quruluşu, dini-mədəni qadağalar və qadına münasibətdə kök salmış stereotiplər Azərbaycanda XIX əsrin ortalarına qədər onların maariflənməsinə ciddi əngəllər törədirdi. O dövrdə fəaliyyət göstərən dini təmayüllü mədrəsələr əsasən oğlan uşaqlarına yönəlmişdi. Qız uşaqları isə nadir hallarda evdə xüsusi müəllimlə, yaxud ailə üzvlərindən birinin köməyi ilə oxuma imkanı tapırdı. Bu cür hallar

yalnız zəngin və ziyalı ailələrdə müşahidə edilir, xalq arasında qızların təhsili qeyri-mümkün sayılırdı.

Qafqazda ilk rəsmi qız məktəblərinin yaradılması Rusiya imperiyasının maarif siyasəti ilə bağlı idi. XIX əsrin ortalarında Tiflisdə, daha sonra Bakı, Şuşa, Gəncə kimi şəhərlərdə qızlar üçün məktəblər açılmağa başladı. 1860-cı ildə Rusiya Xalq Maarif Nazirliyi "Qadın məktəbləri haqqında" əsasnamə qəbul etdi. Lakin bu məktəblərin fəaliyyəti cəmiyyət tərəfindən birmənalı qarşılanmırdı. Qadınların ictimai mühitə çıxması, kişilərlə eyni binada təhsil alması bəzi dairələrdə narazılıq doğururdu.

19-cu əsrin ortalarından etibarən dünyada və xüsusilə Qafqaz regionunda qadınların təhsilə cəlb olunması ideyası daha aktiv şəkildə müzakirə olunmağa başlandı. Bu dövrdə ilk qız məktəbləri, qadın maarifi ilə bağlı yazılar və təşəbbüslər meydana çıxdı. "*Bu dövrdə qız məktəblərinin yaranması azərbaycanlı qızların dünyəvi təhsilalma ideyasının meydana gəlməsinə xeyli kömək göstərdi. Həm yeni rus məktəblərinin açılması, həm də inkişaf etməkdə olan milli mədəniyyətin və dövrün ictimai-mədəni, siyasi tələbləri azərbaycanlı qızlarının dünyəvi təhsilalma ideyasını sürətləndirirdi. Bu ideyanın ilk carçıları mütərəqqi azərbaycanlı ziyalıları idi. Dünyəvi qadın təhsili ideyasının irəli sürülməsində böyük maarifçilər H.Zərdabi, M.T.Sidqi, C.Məmmədquluzadə, E.Sultanov böyük rol oynamışlar. Ötən əsrin 70-ci illərində azərbaycanlı qızları üçün ayrıca məktəb açmaq sahəsində ilk addımlar atıldı. Bu təşəbbüs H.Zərdabinin həyat yoldaşı Hənifə xanıma məxsus idi"* [Həsənova, 2021:55].

1901-ci ildə Bakı şəhərində Azərbaycanda ilk dünyəvi qız məktəbi açıldı və bu hadisə milli maarifçilik tarixində mühüm dönüş nöqtəsi oldu. Lakin bu məktəbə qədər də qadın təhsilinin zəruriliyini gündəmə gətirən ziyalılar mövcud idi və onların başında Həsən bəy Zərdabi gəlirdi. Bir çox ziyalılar kimi, Zərdabi də Azərbaycanda bu hərəkatın öncüllərindən biri oldu və onun qadın təhsili ilə bağlı düşüncələri yalnız dövrünün deyil, bu günün də maarifçilik fəlsəfəsinə işıq tutur.

O, hələ 1870-ci illərdə çap olunan "Əkinçi" qəzetində qadınların təhsilinin əhəmiyyətinə dair yazılar dərc etdirir, maariflənmənin yalnız kişilərlə məhdudlaşmaması gərəkliiyini bildirirdi.

Zərdabi cəmiyyətin tərəqqisini təkcə kişi əhalisinin savadlanmasında deyil, qadınların da maariflənməsində görürdü. Onun fikrincə, ana savadlı olmasa, gələcək nəsillər də savadsız yetişəcək. Buna görə də o, qadınların təhsil almasını ictimai zərurət kimi qiymətləndirirdi və bu məsələyə sadəcə bir sosial problem kimi deyil, milli-mədəni tərəqqinin əsası kimi baxırdı.

**Həsən bəy Zərdabinin qadın tərbiyəsinə yanaşması.** Həsən bəy Zərdabi qadınların yalnız savadlanmasına deyil, tərbiyəvi roluna, cəmiyyətin mənəvi-mədəni inkişafında qadının mövqeyinə də xüsusi önəm verirdi. Onun fikrincə, uşağın ilk müəllimi anadır və əgər ana savadsız, düşüncəsiz, milli-mənəvi dəyərlərdən uzaqdırsa, həmin ailədə yetişən uşaqdan da cəmiyyətin fayda gözləməsi mümkün deyil. "*İslamda uşaqların tərbiyəsində ananın rolu yüksək qiymətləndirilir. Qızları lap körpə vaxtlarından analıq vəzifəsinə layiq bir şəkildə yetişdirmək tövsiyə olunur: "Ana bir məktəbdir, onu (analıq üçün) yetişdirsən, yaxşı kökləri olan bir xalq yetişdirmiş olarsan". İslam qız uşaqlarını müdafiə edir, onlara qayğı göstərilməsini, təlim verilməsini, onların ana və ev sahibəsi kimi böyüdülməsini cənnət savabı qazanmaq yollarından biri hesab edir"* [Rüstəmov, 2006:142].

Zərdabi yazılarında dəfələrlə qeyd edirdi ki, tərbiyə evdə ana ilə başlayır. O, qadını yalnız bioloji ana kimi deyil, mədəniyyətin daşıyıcısı, əxlaq və maarifin ötürücüsü kimi təqdim edirdi. Bu baxımdan qadının tərbiyəsi həm özü üçün, həm də gələcək nəslin formalaşması üçün vacib bir mərhələdir. Zərdabinin fikrincə, savadsız qadın övladına düzgün yol göstərə bilməz, cəmiyyətə faydalı şəxsiyyətlər yetişdirə bilməz.

Ədib belə bir qənaətə gəlirdi ki, qadını tərbiyələndirmək – bütün xalqı tərbiyələndirmək deməkdir. Qadın özünün savadlı, mədəni və maarifli olması ilə ailədə davranış modelini formalaşdırır, ətrafına müsbət təsir göstərir. Bu xüsusilə o dövr üçün cəsarətli və irəlidə olan bir fikir idi, çünki qadın uzun illər boyu ancaq evin içində görünən, fikirləri və istəkləri soruşulmayan bir varlıq kimi qəbul olunmuşdu.

Qadının mənəvi aləmi ilə yanaşı, zahiri görünüşü, xüsusilə geyimi onu narahat edirdi; kişilərin geyimində müəyyən dəyişiklikləri mütərəqqi hadisə kimi qəbul edən maarifçi ədib qadınların Nuh əyyamından qalma geyimlərini onların geriliyi, cahilliyi sayırdı: "*Vay bizim arvadlarımızın gününə, şah Təhmasın vaxtında geyilən paltarı indi də geyirlər. Bir baxın bizim arvadların köynəyinə: yaxa ortadan açıq ki... ətəyi gödək ki... açıq qalsın, qollar gen ki, biləklər görünsün. Arxalığı, çəpkəni, başının çalması ondan da yaman"* [Zərdabi, 1960:448]. Qadın paltarlarının görünüşü Zərdabiyə görə, müsəlman adət-ənənəsinə uyğun deyildi, çadra bağlamaq, yaşmaq tutmaq, başlarını iri örtüklə bağlamaq demokratik ruhlu ədibin dünyagörüşünə və maarifçilik görüşlərinə zidd idi. Qadınların uşalarından belə saçlarını gizlətmələri, yayın istisində belə qolu uzun paltar geyinmələri kimi feodal adətləri Zərdabi

qamçılayır, qadınların daha münasib, rahat, yüngül geyinmələrini, üzüaçıq gəzmələrini yazılarında tövsiyə edirdi.

Zərdabi üçün tərbiyə yalnız nəzakət və davranış qaydaları ilə məhdudlaşmırdı. O, tərbiyəni milli-mənəvi dəyərlərin qorunması, əxlaqi dayanıqlıq, vətəndaş mövqeyi və şəxsiyyətin formalaşması kimi daha geniş bir çərçivədə başa düşürdü. Belə bir anlayış çərçivəsində isə qadının rolu əvəzolunmaz idi. Z.Göyüşov yazır: "*Zərdabiyə görə, qadın bəşəriyyətə ana və ilk tərbiyəçidir. Odur ki, anaya hörmət etməyənlər ən əxlaqsız adamlar sayılmalıdır. ...Vəhşilər belə öz analarına hörmət edirlər. Halbuki bütün məxluqatın tacı olan insanların arasında elələrinə təsadüf edirik ki, onlar öz analarına fitrən naqis bir məxluq kimi baxırlar. Bu, əlbəttə, dözülməzdir*" [Göyüşov, 1960:98].

Həsən bəy Zərdabi "Əkinçi" qəzetində də qadınların təhsili, qızların erkən nikaha daxil olması, özlərindən yaşca böyük adamlara ərə verilməsi, çoxarvadlılıq və s. ilə bağlı yazıların nəşrinə yer ayırır, etirazını bildirir, cəmiyyətin tərəqqipərvər qüvvələrini münasibət bildirməyə, etiraz səsini ucaltmağa səsləyirdi.

**Nəticə/Conclusion**

Həsən bəy Zərdabi maarifçilik ideologiyasının öncül simalarından biri kimi, ömrünün sonuna qədər mövhumat və cəhalətə, islam dininin mürtəce adət və ənənələrinə, ayin və mərasimlərinə qarşı yorulmadan mübarizə aparmış, qadınların təhsil və tərbiyə məsələsinə xüsusi önəm vermişdir. Onun elmi-publisistik fəaliyyəti və fikirləri sübut edir ki, savadlı, düşüncəli və milli dəyərlərlə tərbiyələnmiş qadın cəmiyyətin inkişafında əvəzsiz rol oynayır. O, qadını ailənin dayağı, övladın ilk müəllimi, xalqın mənəvi sabitliyinin əsas mənbəyi kimi görür və qadın maarifinə bu perspektivdən yanaşırdı. "Həyatı və yaradıcılığı ilə öz xalqının mədəni və elmi fikir intibahı tarixində silinməz izlər buraxıb getmiş görkəmli mütəfəkkir və ictimai xadimlər sırasında şərəfli yerlərdən birini" tutan Zərdabinin ideyaları bizə bir daha göstərir ki, qadınlara verilən dəyər təkcə gender bərabərliyi deyil, bütöv bir xalqın gələcəyinin təminatıdır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan ədəbiyyatı tarixi (2011). 6 cilddə, 4-cü cild. – Bakı: "Elm". – 860 s.

2. Azərbaycan mətbuatının məşəli – Zərdabi (2017). Metodik vəsait. Tərtib edən: A.Əliyeva. – Bakı: F.Köçərli adına Uşaq Kitabxanası. – 50 s.

3. Azərbaycan publisistikası antologiyası (2007). – Bakı: "Şərq-Qərb". – 688 s.

4. Cavadova, E. (1988). Sətirlərdə döyünən ürək. – Bakı: Azərnəşr. – 160 s.

5. Əkinçi 1875-1877 (tam mətni) (2005). – Bakı: "Avrasiya Press". – 496 s.

6. Əliyeva, A. (2018). Qadın təhsili məsələləri Həsən bəy Zərdabinin publisistikasında // "Elm və təhsil" jurnalı. − № 2. − s.45-51.

7. Həsənova, N. (2021). Azərbaycanda qadın təhsilinin inkişafı (XIX əsrin sonu XX əsrin əvvəlləri) // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. − cild 88. − №4, s.54-58.

8. Hüseynzadə, R. (2020). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: ADPU nəşriyyatı. – 538 s.

9. Göyüşov, Z. (1960). Azərbaycan mütəfəkkirlərinin etik görüşləri. – Bakı: Azərbaycan SSR EA nəşriyyatı. – 213 s.

10. Rüstəmov, F. (2006). Pedaqogika tarixi. – Bakı: "Nurlan". – 748 s.

11. Talıbov, Y., Sadıqov, F., Quliyev, S. (1999). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: "Ünsiyyət". – 516 s.

12. Zərdabi, H. (1960). Seçilmiş əsərləri. – Bakı: Azərnəşr. – 464 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *30.05.2025*
*Qəbul edilib* *19.06.2025*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*